AZERI.org

# Din Məsələsi

**Cəlil Məmmədquluzadə**

© Cəlil Məmmədquluzadə "Əsərləri".
Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı —1967.
Üç cilddə. İkinci cild.
"Molla Nəsrəddin" jurnalından. 9 mart 1908-ci il. No 10

Qonşumuz Kərbəlayı Heydərin iki oğlu var idi: biri doğma oğlu Qasım,—səkiiz yaşında, biri də ögey oğlu oğlu Nəcəfqulu,—on yaşında.

Uşaq vaxtı küçədə aşıq oynayanda hərdən bir savaşardıq. Mən on yeddi yaşında idim və elə olurdu ki, hərdən bir Qasımı da döyərdim, hərdən bir Nəcəfqulunu  döyərdim.

Qasımı döyəndə uşaq əllərini gözlərinin üstünə basıb ağlaya-aqlaya qaçardı dədəsinin üstə və şikayət edərdi. Kərbəlayı Heydər əmi qeyzli çıxardı küçəyə və gəlib yapışardı qulaqlarımdan, qalxızardı göyə. Bir dəfə az qaldı qulağımın biri dibindən çıxsın.

Amma Nəcəfqulunu da hərdən bir döyərdim və bu da qaçardı dədəliyinə şikayətə. Kərbəlayı Heydər əmi çıxardı küçə qapısına, saq əlinin şəhadət barmağını yuxarı qovzayıb, ancaq mənə bircə bunu deyərdi ki "Qırışmal! Uşağı döymə!".

Bilmirəm, haradan danışmaq istəyirdim, yadımdan çıxdı…

Hə, din məsələsindən danışıram. Rus qəzetlərində oxuyuruq ki, Rusiya vəziri dinləri bihörmət edənlər üçün iki cür tənbeh qoymaq istəyir: xaçpərəst dinini təhqir edənlərə artıq tənbeh olunacaq, amma qeyri dinləri təhqir edənlərə yungül tənbeh olunacaq (söz yox ki, bu cümləyə müsəlman dini də daxildir).

Qəzetlər yazırlar ki, padşahlıq duma vəzirin həmin qanunnaməsini təsdiq eləyir.

Əgər bir qara saldat gəlib dura bir müsəlman baqqalının dükanının qabağında və deyə ki, məsələn, "mənim dinim səninkindən yaxşıdır", biz gərək bunun sözünə etina eləməyək, çünki bu avam və nadan bir saldatdır. Buna bir ovuc kişmiş, ya bir papiros vercək "spasibo"—deyib qoyub gedər.

Amma padışahlıq dumada əyləşən üzvlərin çoxu elmli və tərbiyəli adamlardır. Bəs bunların din barəsində etdiyi rəftarını hara yazaq?

Bu məsələni bu saat yaza-yaza qonşumuz rəhmətlik Kərbəlayı Heydər yadıma düşür: doğma oqlunu döyəndə qulaqlarımı elə çəkərdi ki, az qalardı dibindən çıxsın; amma ögey oğlunu döyəndə ancaq deyərdi; "qırışmal!". O vədə bu işləri başa düşmürdüm; çünki on yeddi yaşında idim. On yeddi yaşında müsəlman uşağı nə başa düşəcək? Amma indi başa düşürəm.
İndi üçüncü dumanı görürəm və bu işləri də bir az başa düşürəm.

Molla Nəsrəddin.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: sentyabr, 2003